MOLLA NƏSRƏDDIN VƏ HAQVERDIJEV HAQQЬNDA XATIRƏLƏRIM

R. Q. NƏÇƏFOV

Ədəbijjat və mətbuat tariximizdə myhym jer dutan Çəlil Məmmədqulu zadə «Molla Nəsrəddin» və Əbdyrrəhim bəj Haqverdijev kibi iki bəjyk simanьn həjat və jaradьcьlьqlarь haqqьnda xьrdaca bir qəzetə məqaləsində bytyn mə'lumat vermək imkan xaricindədir. Bu işi jazьcь və tənqidcilərimizin, xysusilə onlarь tədqiq ilə məşqul olanlarьn əhdəsinə buraqьb, mən onlar haqqьndakь şəxsi xatirələrimdən jazmaq istəjirəm. Mən Mirzə Çəlili 1896-nçь ildən məktəbli coçuq ikən, Əbdyrrəhim bəji isə 1909-ncu ildən tanьjьram.

Mirzənin «Molla Nəsrəddin» devrindən iləriki həjat və fəalijjəti coqlarьna mə'lum dejildir. Halbu ki, 78-çi ildə Qori seminarjasьnь qurtarьb vətəni olan Naxcьvana gələndən sonra, o vaqtkь şərajitin aqьrlьqьna, car hykuməti, jerli xan, bəj mollalarьn birlikdə japdьqь təzjiqinə baqmajaraq Naxcьvanьn mədəni, məarif və içtimai həjatьnda ən aqtiv surətdə calьşmьşdьr. 98-nçi ilə kibi, on ilə jaqьn bir myddət icərisində, Mirzə Çəlil Naxcьvanьn on kilometroluqunda olan Nəhram kəndində myəllim olmuşdur. «Danabaş» kəndi adlandьrdьqь bu kəntdə o ilk dəfə əməkci və joqsul kənd kytləsi ilə sьqь təmasda bulunmuş, onlarь tədqiq etmiş. «Pocta qutusu» «Usta Zejnal», «Qurban Əli bəj» hekajələrinin mevzuunu buradan gətyrdyjy kibi ən qyvvətli əsəri olan «Өlyləri» də bu devrdə jazmaqa başlamьşdьr.

Naxcьvanьn jaqьnlьqьnda olduqu və ata-anasь orada jaşadьqь ycyn tez-tez şəhərə gəlir və orada məarif-mədəni işlərində jaqьndan iştirak edərdi. 1894-ncy ildə Naxcьvanda Ordubadlь şair və ədib Məşədi Taqь Sidqinin təşəbbysy və mydirijjəti altьnda acьlan «Məktəbi tərbijə» adlь ysul çədid məktəbinin tə'sis və təşkilində Mirzə coq bəjyk rol ojnamьşdьr. O, ejni zamanda Naxcьvanda teatro həvəskarlarь dərnəji dyzəltmək və ilk teatro tamaşalarь verməkdə də coq jaqьndan iştirak etmişdir. 1897-çi ildə ojnanьlan Mirzə Fətəlinin «Mysjə Zordan» əsəri xatьrьmdadьr. Burada Mirzə Mysjə Zordan rolunu, qardaşь Mirzə Ələkbər (sonralar birinçi Iran inqilabь zamanь Təbrizdə Səttar xanьn jaqьn arqadaşь və silahdaşь olan Mirzə Ələkbərdir) Məstəli şahьn, bu sətirləri jazan isə Şərəf Nisə rolunu ojnajьrdь. Mirzənin kəməkliji ilə Mirzə Fətəlinin başqa əsərləri də o devrdə ojnanьlmьşdьr («Vəziri Xan Sərab», «Hacь Qara»).

Qardaşьm Əli Qulu «Qəmkysarьn» və mənim Mirzə ilə jaqьn tanьş olmamьz bu devrdən başlanmьşdьr. Sonralar, jə'ni, 1912-də, Tiflisə kecyb, Mirzə ilə birlikdə «Molla Nəsrəddinin» təb'i və nəşrində iştirak etməmizdə bu jaqьnlьq və dostluq az rol ojnamamьşdьr.

Naxcьvanda jaşadьqь zamanlar, Naxcьvan mevhumatcьlarь Mirzəni coq inçidirlər. 98-nçi ildə o əvvəlcə Iravana kecyr, 3-4 il orada qalьb, ərizə jazmaq və myəllimlik etmək ilə məşqul olur, 1903-ncy ildə Tiflisə gedir. Burada əvvəlcə Məhəmməd Aqa Şahtaxtlьnьn cьqardьqь «Şərqi rus» qəzetəsində jazьcьlьq etməjə başlajьr. Bu qəzttə qapandьqdan sonra «Molla Nəsrəddini» cьqarmaq fikrinə dyşyr. Orasьnь da qejd etmək lazьmdьr ki, «Molla Nəsrəddini» cьqarmaqa başlajanda Mirzənin çibində dynja sərvətindən ancaq 2 manat 75 qəpik pul var imiş.

Maddi vəsajitin cətinliji Mirzəni qorqutmur. Bir azdan sonra Məşədi Ələsgər Baqьrovun maddi, Өmər Fajiq Ne'man zadənin mə'nəvi jardьmь, çiddi iştirakь ilə «Molla Nəsrəddinin» birinçi nəmrəsini buraqmaqa myvəffəq olur.

«Molla Nəsrəddinin» ojnadьqь myhymm inqilabi və mədəni rol hamьja bəllidir.

Onun mytərəqqi realizmi, ustalьqla jaratmьş olduqu mənfi tiplər unudulmaz.

Mirzə Çəlil «Өlylər»i 8-nçi ildə jazьb qurtarmьşdьr. 1913-nçi ildə, jaj fəslində, Şuşa qalasьnda onu birinçi dəfə joldaşlarьna oqumuşdur. Jaqşь jadьmdadьr. Həmidə xanьmьn Şuşadakь mənzilinə jьqьlmьşdьq. Azad Əmirov, H. Q. Sarabsqi və başqa zijalьlar da orada idi. Mirzə çyr'ətsiz bir halda əsəri oqujub qurtardь. O, onu dinləjənlərə əsərinin nə çyr tə'sir etdijini bilmək istəjirdi. Hamь əsərin jeni bir şej olduquna, səhnə tariximizdə bəjyk inqilabi rol ojnajacaqьna qane' oldu və Mirzənin bu jazьsьnь təqdir etdi. Bu əsərin bəjyk gurultular qoparacaqьnь bildiklərindən, onun, Şuşa kibi mevhumatcьlar juvasьnda, Aqa Əbdyl Rəhimlərin avamlar fikirinə və zehninə hakim olduqu bir jerdə, səhnəjə qojulmasьna tərəfdar olmadьlar.

«Өlylər»in, guja, Mirzənin təklikdə əz qələmindən cьqmajьb, başqalarьnьn jardьmь ilə jazьldьqь kibi şajiələrin hec bir əsasь joqdur. Cynky bu əsərin hər çymləsində Mirzənin əzynə maxsus jazь ysulu, tərzi-ifadəsi, sadə dili, qьssa, kəsgin mə'nalь və məzhəkəli ibarələri monoloq və dialoqlarь gərynyr.

Dramaturqumuz və jaqьn dostum Əbdyrrəhim bəj Haqverdijevlə tanьşlьqьm 1909-ncu ildə Həştərxandan başlamьşdьr. Dajьm, Nəsrylla Şejxov ilə Iran inqilabьnda iştirakьmьz mynasibətilə car hykuməti tərəfindən Həştərxana syrgyn edilmişdik. Syrgyndə olduqumuz zaman Nəriman Nərimanov da buraja gəldi.

Əbdyrrəhim bəj bu devrdə Həştərxana gəlib cьqdь və onunla burada tanьş olduq. O zamandan başlajaraq onunla hər zaman sьqь rabitədə olmuşam. «Molla Nəsrəddin»i nəşr etdijim zaman tez - tez Tiflisə gələrdi və məcmuəjə jardьm edərdi. Sonralar mən dəfələrlə Şuşa və Aqdama onun janьna getmişəm. Bakьda olan zaman bir-birimiz ilə ajrьlmaz kibi idik. Onun əsərlərinə, 98-99-cu illərdə Naxcьvanda «Daqьlan Tifaq» ojnanьlan zamandan bələdəm. Mən bu əsərdə Syləjman rolunu ojnajьrdьm.

Mirzə Fətəlidən sonra gələn dramaturqlar icərisində, hec şybhəsiz ki, Əbdyrrəhim bəj myhym bir jer dutur.

Əbdyrrəhim bəj tyrkcə və farsca mykəmməl savadlь idi. Jazьlarьnьn dili olduqca sadə və kytləjə jaqьn bir dildir. O, «Molla Nəsrəddin»in əvvəldən axьra qədər aqtiv iştirakcьsь və daimi jazanь olmuşdur.

«Molla Nəsrəddin» dən ilham alan və onun ətrafьna toplanan Sabir, Qəmkysar, Əli Nəzmi, Səid Ordubadь, Mymtaz və başqa şairlərimiz və myhərrirlərimiz icərisində Əbdyrrəhim bəj əzynə maxsus bir jer dutur.

Mirzə Çəlilin və Əbdyrrəhim bəjin bu iki bəjyk dramaturq və qlassiqlərin, istər ədəbi-içtimai sahədə, istərsə dil və mədəni inqlab sahəsində gəstərdikləri xidmət bəjykdyr və tarixi əhəmijjətə hajizdir.

Burasьnь da jaqşь bilirik ki, car hykuməti zamanь və mysavat devrində onlarьn jaradьcьlьqьnьn inkişafьna lazьmь şərajit joq idi, onlara imkan verilmirdi.

Ancaq Aprel inqilabь bu iki bəjyk jazьcьnьn əsərlərini toplamaq, onlarь nəşr etmək, kytləjə catdьrmaq ycyn hər bir şərajiti bizə vermiş oldu. Indi bu sahədə bizim qarşьmьzda duran əsas vəzifə-unudulmaz ədiblərin həjat tarixləri və jaradьcьlьqlarь ilə əlaqədar olan bytyn sənədləri toplamaq, bytyn əsərlərini toplajьb nəşr etməkdən ibarətdir.

BƏJYK JAZЬCЬLARЬMЬZЬN ƏDƏBI IRSINDƏN ISTIFADƏ ETMƏLIJIK

SIMYRQ

Əbdyrrəhim bəj Haqverdijev və Mirzə Çəlil ədəbijjatьmьzьn gərkəmli simalarь olmuşlar. Mən burada onlarьn əsərlərindən və jaradьcьlьqlarьndan danьşmajacaqam,- bunlarь tənqidcilərimizə buraqьram. Əbdyrrəhim bəj dramaturq və nasir olmaqla bərabər, ejni zamanda, musiqişinasdьr. Bu barədə iki səz səjləmək istərdim.

1908-nçi ildə «Lejli və Məcnun» operasь birinçi dəfə səhnəmizdə qojulduqu vaqt, bu operada dirizorluq vəzifəsi Əbdyrrəhim bəjə tapşьrьlmьşdь. Biz Əbdyrrəhim bəji bir hekajəci və dramaturq kibi tanьjьrdьq. Onun musiqişinas olmasьnь bilməjirdik. Bu gecə bir dəstə məktəb uşaqlarь antraqt başlar - başlamaz orkestronun janьnь kəsdirdi mən də onlarьn icərisində idim. Sevimli jazьcьnь jaqьndan gərmək istəjirdik. Qejd etmək lazьmdьr ki, Əbdyrrəhim bəjin simasь və Avropa gejimi bizə bəjyk tə'sir baqьşladь. Ona baqdьqьmьz gəryncə, bizə elə gəldi ki o gylymsədi. Biz tez baş endirib salam verdik; şəfqət və məhəbbət ifadə edən gylər gəzləri ilə bizi syzdy və salamьmьzь aldь.

Bir derizor kibi, operanь myvəffəqijjətlə kecirdi. Onun musiqişinaslьqь 1923-ncy ildə bizə kəmək etdi. Məarif qomisarlьqь qarşьsьnda, Avropa operalarьnь tyrk dilində ojnamaq və bu jol ilə Avropa musiqisini xalqa catdьrmaq kibi bir məsələ dururdu. Birinçi nevbədə «Laqme» operasьnь tərcyməsinə başlamaqa qərar verdik. Lakin bu tərcyməni etmək ycyn musiqi bilən adam lazьm idi. O vaqt, bu işi Əbdyrrəhim bəj Haqverdijev əhdəsinə aldь və «Laqme»ni tyrkcə tərcymə etdi. Bu cətin bir işdi. Notlara gərə əcnəbi səzlərin əvəzinə tyrk səzlərini qojmalь və musiqini saqlamalь idi. Bu işi Əbdyrrəhim bəj myvəffəqijjətlə jerinə jetirdi və əsər opera teatrosu səhnəsində gəstərildi. Lakin Avropa musiqisi o zaman geniş xalq kytləsinə catmamьşdь; ona gərə də bu opera tamaşasь təkrar olunmadь.

Əbdyrrəhim bəjin myəllim olmasь da unudulmasьn. O jeni gənclijin tə'lim və tərbijəsində bir coq illər calьşmьşdьr. Mən onu 26-ncь ildə darylfynun mydərrisləri sьrasьnda gərdym. Darilfynunda ədəbijjatdan dərs verir, tyrk və rus dilləri oqudurdu. Bu sahədə bəjyk xidmətləri olmuşdur. Səz joq ki, myəllimlik onun əsas ixtisasь dejildi, zənn edirəm. Əsasən o, bəjyk dramaturq idi. bir dramaturq və nasir kibi ədəbijjatьmьzda gərkəmli jer dutur.

Mirzə Çəlili mən «Molla Nəsrəddin» zurnalьnь mytaləə etmək jolu ilə tanьjьrdьm. Əzyny gərməmişdim. «Molla Nəsrəddin» zurnalьnda verilən şəkillərdən həmişə molla gylərək, bəjyk barmaqь ilə cəkilən şəkili gəstərirdi; bəlkə buna gərə də biz cocuqluqda Molla əmini «Molla Nəsrəddin» qijafəsində tanьjьrьq. Birinçi dəfə olaraq Molla əmini inqilabdan sonra gərdym. 1923-ncy ildə «Məarif və mədənijjət» zurnalьnь nəşrə başladьqьmьz zaman zurnalьn hekajə qismi ycyn Mirzə Çəlilə myraçiət etdik, ondan bir hekajə istədik. Dərhal bizə «Zьrrama» hekajəsini verdi. (Hekajə «Məarif və mədənijjət» də cap edildi). Myraciətimizə qarşь verdiji çavabdan məmnun qalaraq mən ona:

—Mirzə, məcmuəmizdə iştirak etməjiniz rica olunur,—dedim.—vaqtьnьz mysaidə edərmi?

—Nijə, edər,-dedi.

—Jazьlmьş hekajələriniz varmь, jaxud jazacaqsьnьz?

—Jazьlmьş hekajələrim də var, mevzu da coqdur.

Mirzə, doqrudanda, zəngin mevzulara malik idi. Mevzu çihətdən Mirzə Çəlil kibi zəngin ehtijata malik olan jazьcь bilmirəm. Mən bunu Mirzədən xysusi səhbətdə əjrənmişəm.

Mirzə Çəlil mənə də bir myddət kəntdə jaşamaqь tevsijə edərdi.

Mirzə Çəlilin dil məsələsində bəjyk xidməti olmuşdur. O, mə'lum olduqu yzrə, jersiz ərəb və fars səzləri işlətmənin dyşməni idi. Bu fikrini o, istilah qomitəsində calьşdьqьmьz zaman həmişə iləri syrərdi. O vaqt 24-ncy illərdə Mirzə Çəlil bizimlə bərabər istilah qomitəsində işləjirdi.

Mirzə fars və ərəb terminləri əvəzinə tyrk səzlərinin işladilməsini təklif edirdi; o vaqt bə'zilərimizə ərəb və fars kəlmələrindən əl cəkmək cətin gərynyrdy. Bu gyn Mirzənin nə qədər haqlь olduqu hamьmьza ajdьn.

Mirzənin xidmətləri qejd edildiji vaqt, onun əlifba məsələsi işindəki əməji də unudulmamalьdьr. Jeni əlifba qəbulu işində Mirzə coq calьşmьşdьr. Mirzə jeni əlifbanьn birinçi tərəfdarlarьndan olmaqla bu sahədə az calьşmamьşdьr. Jeni əlifba xadimləri sьrasьnda Mirzə Çəlil Məmmədqulu zadə dəxi qejd edilməlidir. Hər iki jazьcьmьz içtimai həjatda aqtiv calьşmьş bəjyk simalardьr. Onlarьn buraqmьş olduqu jazьlar bizim ycyn bəjyk ədəbi bir irsdir.

XATIRƏLƏRIM

S. HYSEJN

1907-nçi ildə mən «Molla Nəsrəddin» məcmuəsinin ən hərarətli oqucularьndan idim. O zaman mətbəədə calьşьrdьm: coq gəncdim. Kəmal səbirsizliklə həftənin bitməsini, Molla Nəsrəddinin gəlib cьqmasьnь gəzlərdim. Coq myntəzəm, əz vaqtьnda cьqan bu məcmuənin Bakьja gəldiji gyn myəjjən idi. Coq vaqt olardь ki, o gyn mən tənbəllik etməjib mərkəzi poctaja gedər, Tiflis postasьnь gəzlərdim. Mən tək dejildim. Mənim kibi iş gycyny braqьb Molla Nəsrəddin arqasьnca posta qapьsьnda gəzləjən 9-10 nəfər də olardь. Əksəri gənclər idi. Aramьzda bə'zən jaşlьlar da olardь. O zamanlar ymumijjətlə bu kibi mətbuat aşьqlarьnь «məarifpərvər» adlandьrardьlar.

Mən jenə o gynky şadlьqьmь burada təsvir edə bilməjəcəjəm ki, bir-iki həftə sonra ilk dəfə olaraq kycədə qəzetə satan usaqьn «Molla Nəsrəddin» qьşqьraraq qacdьqьnь gərdym. O zamanьn zəngin məarifpərvəri olan bir gənc haman qəzetəci usaqa, bir nysxə məcmuə ycyn on manat baqьşladь.

Mənə belə gəlir ki, bizim mətbuat tariximizdə «Molla Nəsrəddin» məcmuəsi qədər əz zamanьnda geniş xalq kytləsi arasьnda jajьlan coq tirazlь bir məcmuə olmamьşdьr.

1913-ncy ildə mən «Səfa» məarif çəmijjəti tərəfindən bir necə arqadasla Qobi kəndinə getmişdik. Qobi məsafə e'tibar ilə Bakьdan ən uzaq kəndlərdən biridir. Bizim məqsədimiz tamamilə savadsьz olan bu kəntdə ibtidai bir məktəb acmaq idi. Ortabab bir kəntlinin qonaqь olduq. O zaman mənim hejrətimə səbəb olan şej ev jijəsinin tamamilə savadsьz olmasьna baqmajaraq qonaqqara ycyn saqladьqь otaqьnьn divarlarь Molla Nəsrəddin rəsmləri ilə təzjin edilməsi idi. Bu kəntli «Molla Nəsrəddin» məcmuəsini gəlişi gəzəl bir tərzdə divara japьşdьrmьşdь.

Mirzə Çəlil ilə mənim tanьşlьqьm 1916-cь ilin əvvəllərində oldu. Bu zaman o birinçi dəfə Bakьja gəlmişdi. «Өlylər» façiəsini ojnadacaqdь. Bu façiə bəjyk bir myvəffəqijjətlə ojnandь. Tamaşa gyny teatro salonu aqzьna qədər tamaşacьlar ilə dolu idi. Iskəndəri Mirzə Aqa Əlijev, Şejx Nəsrullahь «Molla Nəsrəddin» jazьcьlarьndan Əli Qulu Qəmkysar, Şejx Əhmədi Mirzə Muxtar ojnajьrdь. Ycyncy pərdədən sonra myəllifi alqьşladьlar. Bizim tyrk səhnəsində birinçi hadisə idi ki, myəllif belə səmimijjətlə alqьşlanьrdь. Mirzə səhnəjə gəldikdən sonra tamaşacьlardan bir sьra nymajəndələr salondan səhnəjə kecərək onun əlini sьqьb təbrik etdilər. Qəzetə redaqtorlarьndan birisi bir nitq də səjlədi.

Mərhum Haqverdijevlə də tanьşlьqьm bu illərdə oldu. Mən onu tanьjьrdьmsa da, o Bakьda tysadyfi hallarda olduqundan rəsmən tanьşlьqьmьz olmamьşdь. Bu il onun «Şejx Şə'ban» adlь hekajəsi Bakь qəzetələrinin birində təfriqə şəklində nəşr olundu. O zaman mən tənqid ilə maraqlanar, jeni ədəbi əsərlər haqqьnda tənqid rə'ji jazardьm. Mən bu hekajə haqqьnda coq uzun bir tənqid nəşr etdim. Haqverdijev mənim məqalələrimi oquduqdan sonra idarəjə gələrək mənə təşəkkyr etdi. Hətta son zamanlarda da tənqiddən səhbət dyşdykdə bu məqalədən bəhs edərdi.

«Pepo» QBET-da: şəkildə soldan saqa əm. inçə sə'nət xadimi rez. Qullaqjan, rəssam əm. inçə sən'ət xadimi Arucjan.

ÇOŞQUN VƏ SEVINÇLI

Bizim diviziijamьz Işci-Kəndli Qьzьl ordusunun qabaqcьl hissələrindəndir. Dəjyscy və qomandirlərimiz Qьzьl Ordunun ən cəsur oqlanlarьdьrlar. Biz son ildə dəjys və sijasi hazьrlьqьmьza bir coq myvəffəqijjətlər əldə etdik. Bizim xidmətlərimizə gərə, hekymət divizijamьzь «Qьzьl Bajraq» və divizijamьzьn qabaqcьllarьnь «Qьzьl Jьldьz» və «Şərəf nişanь» ordenləri ilə təltif etdi.

Biz gəzəl nizami hazьrlьq gəryb, məhkəm sьralarla sərt addьmlarla jerijirik. Bizim staxanovcu - telfoncu, radist istehkamcьlarьmьz bytyn kenə normalarь qьrьb iki dəfə artьq jerinə jetirirlər.

Biz qarlь və boranlь gynlərdə Qafqas daqlarь silsiləsini jyryş edib, cymhurijjətimizin ən hyndyr daqlarь olan «Şah daq» və «Bazar dyzy» daqlarьnь fəth edib, əz silahlarьmьz pulemjotlarьmьzla ataş acdьq.

Bizim çəsur və məhkəm dəjyscylər jyryşdə, istirahətdə əz ana dillərində jazьlmьş coşqun, həjəcanlandьrьcь və şən qьzьl əskər nəqmələri oqumaq və tərənnym etmək istəjirlər. Təəssyf ki, indijə qədər bizim Şura jazьcьlarьmьz bunlarьn hec birini verməmişdir. Jazьcьlar ordenli cymhurijjətimizin ordenli divizijasьnьn qəhrəman dəjyscylərindən hec bir şej jazmamьşlar.

Mənim tanьdьqьm Şura jazьcьlarьndan **Səməd Vurqun, Syləjman Rystəm, Rahim** və **Mysfiq** bir necə də'fə bizim qьzьl əskər jьqьncaqlarьnda qьzьl əskər nəqmələrini jazacaqlarьnь və'd etmişlər. Bu və'dlər nə qədər də uzun cəkdi!

Mənim bildijimə gərə bizim şair və bəstəkarlara olan məktubumuza çavab olaraq, bəstəkarlar qabaqa cьqьb, bizim ycyn jyryş şərqiləri bəstələməjə başlamьşlardьr. Bunun birinçi nymunəsini Qьzьl Ordunun 18-çi il dənymyndə tyrkcə «Qommunist» qəzetəsində, bəstəkar Uzejr bəjin jazdьqь jyryş şərqisini oqudum. Lakin bunu bizə əjrətmək lazьmdьr. Bu addьm coq balacadьr. Bəjyk poemalar jazan şairlərimiz, «Nərgiz» kibi inqlabi opera jazan bəstəkarlarьmьz bizim ycyn qьzьl əskər nəqmələri də jaza bilərlər. Biz bir dəjyscy kibi şair və bəstəkarlardan bunu tələb edirik.

Biz uzaq məsafələrə olan dəjyşmyzdə lal-kar jerimək istəmirik. Biz qьzьl qьşlalarda səssiz durmaq istəmirik. Biz sevinçli və şad jaşamaq ycyn şən nəqmələr tərənnym etmək istəjirik. Biz qarlь daqlar başьnda, kecilməz jollar ajrьcьnda zəfər şərqiləri oqumaq istəjirik. Biz qarşьdakь 1 maj bajramь gynyndə şən Bakь kycələrindən zəfər şərqiləri oqujaraq kecmək istəjirik. Şair və bəstəkar joldaşlar bizim bu tələbimizi jerinə jetirin!

Kicik qomandir: ZEJNALOV SEJFƏDDIN.

PARAŞYTCILƏR

Hər vaqt biz fərdi və kytləvi surətdə fəza boşluqlarьndan, təjjarədən tullanьrkan coşqun ruhumuz nəji isə tərənnym etmək istəjir. Lakin nə olsun. Burada da şair joldaşlar bizə coq borcludurlar. Əz ana dilimizdə cəsur paraşytcylərə oqujacaqь hec bir nəqmə joqdur.

Şair joldaşlar bilirlər ki, bizdə paraşytcylyk kytləvi şəkil almьş, rəhbər bir dəjyscy qomandir və başcь paraşytcy olurlar. Paraşytcylərin həjatь gyndən-gynə artьr. Şair joldaşlar jəqin ki bizim xalq qomisarьna verdijimiz 1000 paraşytcy hazьrlamaq və'dimizi [illegible]lərlər. Biz bu və'di birinçi gyndən jerinə jetiririk. Indi bizim 100-dən artьq joldaşlarьmьz təjjarədən tullanmьş, 500-ə qədər tullanmaqa hazьrdьr. Jyzlər və minlərcə qəhrəman paraşytcy dəstəsi jenə də zəfər şərqiləri oqumaq istəjirlər. Biz jaqşь paraşytcymyz Hacьjev Abasov və sairlərinin adьna nəqmələr oqumaq istəjirik.

Lakin burada juqarьda dedijimiz kibi şair joldaşlar bizə borcludurlar. Şair joldaşlar jəqin ki, bu borclarьnь edəjərək, bizim ycyn cəsur paraşytcy şərqiləri jazacaqlardьr.

Ordenli paraşytcy dəjyscy: QULIJEV HYSEJN.

COBAN

Şura poezijasь

(Poezija myşavirəsi mynasibətilə)

Şuralar Belorusjasьnьn mərkəzi Minsq şəhərində Umum Ittifaq Jazьcьlar Ittifaqьnьn poezija məsələlərinə həsr olunmuş plenumu qapandь. Bu plenum əsas e'tibarilə şura poezijasьnьn vəzijjətini onun birinçi Umum Ittifaq jazьcьlar qurultajьndan bəri kecən il jarьm myddətindəki myvəffəqijjət və noqsanlarьnьn iş jegunlarьnь myzakirə etdi.

Şura jazьcьlarьnьn birinçi qurultajь poezija haqqьnda nə dedi? Dynjaca misilsiz şura poezjasь sosjalizm poezjasь jaradьldьqь, Majaqovski kibi jeni devrin bəjyk şairi başda olmaq yzrə qabaqcьl inqilabcь dynja poezijasь vycuda gətirildiji qurultajda gəstərildi.

Lakin qurultaj myvəffəqijjətləri qejd etməklə kifajətlənmədi. Burada şura ədəbijatьnьn əsas istiqamət xəttləri gəstərildiji kibi, poezja haqqьnda da coq kəsgin və qət'i səzlər dejildi. «Indi Majaqovski stilində agitqa jazmaq zamanь dejildir. (Buxarin) kibi janlьş olan bir nəqtəji nəzəri cьqarsaq, ymumijjətlə poezja çəbhəsindən geri qalmasь məsələsi əlbəttə doqru bir fikir idi.

1-nçi qurultajda Buxarin tərəfindən iləri syrylən səhv fikir nədən ibarət idi? Bu fikir şeirimizi içtimai sijasi məsələlərdən jajьndьrmaq təhlykəsi idi.

Majaqovski agitqasьnь da bə'zi «agitqalara» qatmaqa calьşanlar əlbətdə inqilabьn bəjyk şairinə xijanət edirlər. Cynky onun agitqasь hec də hərcaji agitqa dejildir. Bu gynə qədər jyksək sənətkarlьqla sijasi içtimai cihəti Majaqovski kibi bəjyk bir qyvvətlə iləriјə kecən ikinçi bir şair hələ joqdur. Lenin haqqьnda 26-lar haqqьnda ən gəzəl şeiri sijasi məsələlərə həsr edilən ən sənətkar əsərləri Majaqovski vermişdir. O bir şeirində şairlərimizdən ən azь «jyz il jaşaja biləçək şeir» tələb etmiş və «şairin qafijəsi həm nəvaziş həm şeir həm də syngydyr» demişdir. Əlbəttə ki, belədir də. Majaqovski sənətində bu yc cihətin ycyny də sintetik surətdə əks etdirmişdir.

Istər Rusja ədəbijjatьndakь bir sьra bədii cьqьşlar, istərsə Azərbajcan poezijasьndakь bir taqьm son əsərlər ajdьncasьna isbat etdi ki, bu «uzaqlaşdьrmaja» jol verilməjəcək.

Mətbuatьmьzda Stalin haqqьnda cьqmьş şeirlər, (Səməd Vurqun, M. Mysfiq və başqalarь), «Mingəcevyr həsrəti» (Mysfiq) «Capajev» (S. Rystəm) və sairə bilavastə şeirimizi sijasi aqtuallьqdan uzaqlaşdьrma təşəbbyslərinə jaqşьca verilmiş çavabdьr.

Lakin bytyn bunlarla birlikdə poezijanьn geri qalmasь jenə də inkar edilməz bir faqtdьr. Poezjamьz əlkəmizdəki bir sьra hadisələr, jeni inqlabcь həjat və insanlarь, jeni məişət və ehtiraslarь lazьmьnca əks etdirmədiji kibi, tematiqa çihətindən də geri qalmaqdadьr.

Proletar inqilabь tarixində bəjyk tarixi şanlь səhifələr acan 26-lar, «Azərbajcanьn birinçi xilaskarь» (Stalin) Orçonikidze başda olmaq yzrə əlkəmizdəki «inqlabcь kəntlilərə» (Y. I. (b) F MQ məktubundan) jardьm əli uzadan qəhrəman 11-nçi ordunun myzəfərijjətli dəjyş jolu; bu gyn qьzьl bajraqlь Qafqas ordusu icərisində şərəfli bir mevqe' dutan Azdivizja və başqa kytlə-qəhrəmanlar, quruluşumuzdakь fədakarlьq və qəhrəmanlьqь ilə şəhrətlənən insanlar nəft və pambьq staxanovcularь şeirimizdə əks etdirilməmişdir.

Bunlarьn səbəbi nədir?

Bunun əsas səbəbi, hər şejdən əvvəl, şeirimizin sijasi-içtimai aqtuallьqь olan məsələlərlə sistematik surətdə dejil «həvəsə gələndə» məşqul olmasьndadьr. Bunun səbəbi-şura poezjasь prinsiplərinin hələ şairlərimiz tərəfindən lazьmьnca mənimsənilməməsidir.

Majaqovski isə şeir sənətinin hər nev' silahьna malik idi və bunlarь coq hynərlə işlədə bilirdi. O, «asan və tapdalanmьş bir jol ilə» (Majaqovski) dejil, jeni, sadə və kytlələr danьşьqьna jaqьn bir poezja dili ilə cьqьş etmiş, sosjalizmin onlarca maraqlь məsələlərindən ilham almьş; ajrь-ajrь inqlabcь faqt və məsələləri bəjyk pafos və gerojiqaja qaldьrmьşdьr, şura aparatьndakь bir byroqratь, bir abьvateli, inqilab və zifələrini sarsaqcasьna başa dyşmyş bir cinovniqi balaca bir epiqramla dəjmyş, quruçuluq və jeni həjat jolundakь əngəllərə jajlьm atəşi acmьşdьr.

Bizim şeirimizdə isə bəjlə sintatik qavrama joqdur. Bizim elə şairlərimiz var ki, əz jaradьcьlьq yygyndə buna haman jer verməmiş kibidir. Bunlar əzləri ycyn «mə'lum bir cərcivə» jaratmьşlardьr.

Birisi jalnьz vətəndaş myharibəsi qəhrəmanlьq və pafosunu, o biri qərami «liriqa» ilə «gənyl acan tərənələri», bir ycyncysy jalnьz poemalarь, dərdyncysy də jalnьz sijasi aqtual və kəsginliji olan məsələləri əzynə «ilham mənbəi» gətyrmyşdyr. Belə «jalquzaqlьq» poezjamьzda mysbət hadisə dejildir. Əlbəttə bizim bu fikirimiz ajrь-ajrь jaradьcьlьq jollarь əlejhinə cevrilməmişdir. Burada əlejhinə olduqumuz şej şairlərimizin məhdud cərcivə icərisindən cьqmaq istəməmələridir.

Majaqovski bytyn zanrlardan istifadə etmiş, həm də maraqlь və sənətkarcasьna istifadə etmişdir. Bu jaradьcьlьqda balaca bir epiqramdan başlamьş, bəjyk epik bir əsərə; dərin, subjeqtiv liriqadan dutmuş satiraja qədər hər səpgidən əsər tapa bilərsiniz. O, qarşьdakь məqsəd və vəzifədən asьlь olaraq, talantьnьn bytyn qydrətini parlaq surətdə gəstərmişdir.

Majaqovskinin bir cəhəti də, şura poezjasьna nana xətti ola biləçək myhymm bir cihəti də onun sənətdəki novatorluqudur., O, dildə olduqu kibi stildə də, zevq və həvəsdə də, sənət zehnijjətində də jenidir. O, jaradьcьlьqьnь «içtimai zevqə bir şillə» (1912) ilə başladь; bu ən'ənəvi rus poezjasьnьn artьq sosjalizm epoxasь ycyn jeni olmajan qanun və cərcivələrini jьqmaq idi. O, bunlarь jьqdь və təmamilə jeni, inqlabi bir şeir çərəjanь acdь. Başladьqь cьqьş ysjankar —jalqьz bir insanьn humanist çəbhədən etdiji protestosu idisə də, bunu qapitalizmi dəjmək dəjyşynə cevirdi və bu gyn həqiqətən bir çərəjan sərkərdəsi ləjaqətini, «gur səslə» danьşan şura epoxasь qlassiqi adьnь qazandь.

Onun dilini sadə danьşьq dili hesab etmək avamlьq olar. Bu dil jeni poezja dili-tam intonasjalь, daxili ahəng və qanunijjət olan, həm də myəjjən dərəçəjə qədər qafijələri məhkəm olan bir şeir dilidir.

O, səzlərini bəjyk bir mənbə'də, geniş mə'nadakь xalqdan almьşdьr. Təzə səz içadcьlьqь onda coq jerli, təbii və bədiidir. Forma xatirinə jaradьlmьş tək bir səzə belə Majaqovski poezjasьnьn son devrində rast gələ bilməzsiniz. Onun bytyn bu çəhətləri şeirimizdə ərnək olacaq dərəçədə myhymm faqtlar olaraq qalmaqdadьr.

Bizim şairlərimizdən «asan və tapdalanmьş jol ilə» gedən coqdur. Kəlmə «içadcьlьqь» bizi janlьş jollara sapdьrьr. (Rəfili və R. Rzanьn bə'zi kəlmələri kibi: «bizimləşən» «SSSR jaratlьsь»...)

Majaqovskinin bu novatorluqu indi mə'lum bir faqtdьr. Indi Rusjanьn ən iləri gələn şairləri (Asajev, Kirsanov, Bezьmenski, Tixonov) onun jaratdьqь poezjasьnьn bilavasitə myaqibləridir. Qərbin inqlabcь şairləri arasьnda onun tə'siri altьna dyşməjən həmən joq kibidir. Bytyn qardaş çymhurijjətlərin ilərində gedən şairlərində Majaqovskinin az-coq tə'sirini gərmək mymkyndyr. Bizdə başlьca olaraq Rəfili, Səməd Vurqun və Syləjman Rustam jaradьcьlьqьnda bu tə'sir əzyny hiss etdirmişdir. Lakin bu tə'sir az təsadyflərdə dyzgyn bir istiqamət tə'siri, Majaqovski hynərinin mysbət bir in'ikasьdьrsa, coq zaman «jamsьlama» xaraqteri daşьjьr. Səməd Vurqunun bir sьra şeirləri «Şairin səsi», «Fanar», «Zərərcilər», « Rot Front» və başqalarь, Fevzinin bə'zi şeirləri («Mister», «Səkkizlər» və i. a.), Syləjman Rystəmin bir necə şeiri birinçilərə misal ola bilər. Fevzinin bə'zi şeirləri, Mysfiqin bir - iki şeirindən başqa sərbəst jazьlmьş şeirləri bu novatorluqu «jamsьlama» nymunələrindən başqa bir şej dəjildirlər.

Majaqoski tərəfindən şura poezjasьna gətirilmiş bytyn bu əsas prinsiplər hec şybhə joqdur ki, jeni poezjanьn jollarьnь ьşьqlandьran fanarlardьr. Majaqovski şura poezjasь sərkərdələrindən biridir. O «şura epoxasьnьn ən talantlь şairi idi və belə də olaraq qalmaqdadьr» (STALIN).

O halda indi, şura poezjasь vəzifələri myzakirə edilirkən, Majaqovski mirasь, Majaqovski hynər və sənəti bizi bir daha ən jaqьndan məşqul etməlidir.